

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

25 avqust 2022-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 33 (3596)


# HƏDƏFİMİZ REGİONDA SÜLHƏ NAİL OLMAQDIR

## *Sağlam qonşuluq siyasəti prioritetlərimizdən biridir*

Bu, tarixi həqiqətdir ki, otuz ilə yaxın müddətdə Azərbaycan torpaqları işğal altında olarkən beynəlxalq təşkilatlar daim ölkəmizə qarşı ikili standartları tətbiq etdilər və Ermənistan da bu cəzasızlıq mühitindən lazımınca yararlandı.

Azərbaycan dövləti humanizm prinsiplərinə əsaslanaraq münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu bildirməklə dünyaya əsl mövqeyini göstərmiş oldu. Son 17 ildə (2003-2020-ci illərdə) İlham Əliyev keçirdiyi bütün görüşlərdə səsləndirdiyi fikirlərlə, sərgilədiyi mövqe ilə bu prinsipə sadiqliyini sübuta yetirdi. Həmçinin beynəlxalq güclərin diqqətini illərlə görməzdən gəldikləri, bölgənin inkişafını əngəlləyən, sülh və sabitliyə təhlükə yaradan Qarabağ probleminə cəlb etdi.

Lakin Azərbaycanın bu mövqeyindən Ermənistan nəticə çıxarmadı. Əksinə, işğal etdiyi Azərbaycan torpaqlarında qanunsuz məskunlaşma siyasəti həyata keçirdi. Bu azmış kimi şəhər və kəndlərimizi yerlə-yeksan edib tariximizi, irsimizi silməyə çalışdı. Hətta havadarlarına arxalanıb Azərbaycana qarşı dəfələrlə cəbhə xəttində təxribatlar törətdi, çirkin əməllərindən əl çəkmədi. Bütün bunlar isə Azərbaycanın səbr kasasını doldurdu və nəticəsi də işğalçıya çox ağır başa gəldi. İlham Əliyevin qüdrətli sərkərdəliyi ilə Azərbaycan Ordusu özünə, silahlı birləşmələrinə güvənən Ermənistanı 44 günə qarşısında diz çökdürdü...



Bu savaşla Ali Baş Komandan söz anlamayan düşməni qarşısında diz çökdürüb hərbi kapitulyasiya sənədinə imza atdırdı. 3 rayonun bir güllə atılmadan boşaldılması isə İlham Əliyevin böyük siyasi-diplomatik qələbəsi kimi tarixə yazıldı.

Görünən odur ki, ermənilər çox unutqan millətdirlər. Əgər belə olmasaydı, Azərbaycanın tarixi torpaqlarından sakit şəkildə çıxmalarına icazə verilən ermənilər Kəlbəcərdə evlərə və meşələrə od vurmazdılar. Meşələrə od vurmaq, ağacları kəsmək əsl ekoloji terrordur. Özü də bu barbarlıq xarici KİV-in və dünya ictimaiyyətinin gözü qarşısında baş verdi.

Müqayisə üçün deyək ki, 1993-cü ildə Kəlbəcərin əsl sakinləri dağları, meşələri, keçilməz yolları ayaqyalın qət edərək canlarını erməni silahlılarından güclə qurtardılar. Yüzlərlə kəlbəcərli qırğına məruz qaldı, cəsədləri belə təhqir edildi. Çoxlu sayda insan girov və ya itkin düşdü. Kəlbəcərlilər özləri ilə heç nə götürə bilmədilər, sakinlərin bütün əmlakı ermənilər tərəfindən qarət olundu.

27 il sonra isə Azərbaycan hər zamankı kimi humanist xarakterini bir daha nümayiş etdirib ermənilərə Kəlbəcəri tam boşaltmağa, hər şeylərini aparmağa imkan yaratdı, yetər ki, tarixi yurdumuz düşməndən təmizlənsin. Yəni, 27 il əvvəl baş verənlər və 2020-ci ildə şahidi olduğumuz mənzərə isə bizim fərqimizi - iki ölkə arasındakı fərqin bariz təcəssümüdür.

Bu gün Azərbaycan Prezidenti yenə də öz humanist siyasətinə sadiq qalaraq Laçın şəhərindən, Zabux və Sus kəndlərində qanunsuz məskunlaşmış ermənilərin çıxarılması üçün onlara vaxt verib. Ermənilərin orada qanunsuz məskunlaşması ilk növbədə hərbi cinayətdir, çünki bu, Cenevrə konvensiyalarının qaydalarına ziddir: işğalçı ölkə işğal edilmiş torpaqlarda qanunsuz məskunlaşma apara bilməz.

İndi yenə də ermənilər boşaltdıqları ərazilərdə yanğınlar törədir, yaşayış evlərinə, flora-faunaya ciddi ziyan vururlar. Bu isə bir daha əsl erməni xislətinin dəyişmədiyini sübuta yetirir.

Azərbaycan Televiziyasına müsahibəsində İlham Əliyev bu məsələyə toxunarkən bildirib ki, Laçın şəhərinin, Zabuxun, Susun əzəli sakinləri öz yurd-yuvasına qayıtmalıdırlar. Ona görə də həmin ərazilərdə qanunsuz məskunlaşanlar tez bir zamanda torpaqlarımızı tərk etməlidirlər. Bunun üçün onlara vaxt da verilib. Lakin onların bəziləri ərazini tərk etməyəcəyini iddia edir. Azərbaycan Prezidenti isə həmin şəxslərə bir daha xəbərdarlıq ünvanlayıb: "Xəbərlər gəlir, biri deyir ki, mən çıxmayacağam, o biri deyir ki, mən çıxmayacağam. Özləri bilər. Onlar hərbi cinayətkardırlar. Yenə də bizi, bizim səbrimizi sınağa çəkməsinlər. Öz xoşu ilə oradan çıxıb getsinlər. Haraya gedirlər bizi maraqlandırmır".

Reallıq isə budur ki, qalib sərkərdə kimi İlham Əliyev regionda yeni reallıqlar yaradıb və hər kəs bu regionda Azərbaycanla hesablaşmağın vacib olduğunu dərk edir. Vətən müharibəsinin nəticələri bütün dünyaya Azərbaycanın yaranmış indiki reallıqda sülhə, beynəlxalq hüquqda təsbit olunmuş ölkələrin dinc yanaşı yaşaması prinsiplərinə nə qədər sadiq qaldığını nümayiş etdirdi. Həm də bəyan etdi ki, davamlı sülh modeli region və eləcə də bütün dünya üçün ən güclü nemətdir, bu gün bütün dünyanı fəlakətdən qurtaracaq yeganə ümumbəşəri dəyərdir. Buna görə də davamlı sülhə nail olmaq bu gün ən prioritet vəzifədir.

Amma görünən odur ki, Ermənistan regionda sülhün bərqərar olmasını istəmir. Təbii ki, bu, qeyri-mümkün olan məsələdir. Çünki beynəlxalq təşkilatlar, böyük güclər Cənubi Qafqazda təhlükəsizliyin təminatı ilə bağlı ortaya konkret mövqe qoyublar. Əgər Ermənistan öz ənənəsinə sadiq qalarsa, onda humanizm yox, "dəmir yumruq" işə düşmək məcburiyyətində qalacaq.

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

Avqustun 23-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti əsnasında iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək inkişafı və strateji tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsi məsələləri müzakirə olunub.

Avqustun əvvəlində Hökumətlərarası Birgə Komissiyanın növbəti iclasının, Özbəkistan, Azərbaycan və Türkiyənin xarici işlər, ticarət və nəqliyyat nazirlərinin birinci görüşünün səmərəli olduğu vurğulanıb.

Dövlət başçıları praktiki qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinə tərəfdar olduqlarını bildiriblər. Bu baxımdan cari ilin payızında Regionların Forumunu və iki ölkənin sənaye potensialı sərgisini keçirməyin vacibliyi qeyd edilib.

Telefon söhbəti zamanı Şanxay Əməkdaşlıq Təşkilatının və Türk Dövlətləri Təşkilatının Səmərqənddə baş tutacaq Zirvə görüşlərinin qrafiki və gündəliyi də nəzərdən keçirilib.

## ƏLAQƏLƏR İNKİŞAF EDİR

Avqustun 24-də Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Qazaxıstan Respublikasının Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevi qarşılayıb.

Rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə təkbətək görüşü olub.



Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev tərəfindən Qazaxıstanın "Altın kıran" – "Qızıl qartal" ali ordeni təqdim olunub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev Qazaxıstanın "Bİ-Group" Holdinqi tərəfindən Füzuli şəhərində uşaqlar üçün inşa ediləcək Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin layihəsi ilə tanış olublar.

"Bİ-Group" Holdinqin Direktorlar Şurasının sədri Aydın Raximbayev dövlət başçılarına layihə barədə məlumat verib.

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev ilə geniş tərkibdə görüşü keçirilib. Geniş tərkibdə görüş başa çatdıqdan sonra hər iki ölkənin prezidentlərinin iştirakı ilə Azərbaycan-Qazaxıstan sənədləri imzalanıb.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayev mətbuata bəyanatlarla çıxış ediblər.

# El qədrini canından daha əziz bilənlər...





Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış xüsusi təyinatlılarımızdan biri də çavuş Süleymanov Rauf Allahverdi oğludur. O, 1987-ci il mayın 29-da Neftçala rayonunun Abasallı kəndində doğulub. Orta təhsilini 1994-2005-ci illərdə şəhid Həsən Əliyev adına Abasallı kənd tam orta məktəbində alıb.

Rauf müddətli həqiqi hərbi xidmətini 2005-ci ilin iyul ayından 2007-ci ilin yanvar ayınadək Daxili Qoşunların Hacıqabul və Gəncə şəhərində yerləşən hərbi hissələrində keçib. Müddətli həqiqi hərbi xidmətini başa vurduqdan sonra qoşunların Gəncə şəhərindəki “N” saylı hərbi hissəsinin atıcı dağ taborunun xüsusi təyinatlı qrupunda müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi Vətənə borcunu yerinə yetirib. Çavuş R.Süleymanov 2008-ci ilin iyun ayından qoşunların Bərdə rayonundakı “N” saylı hərbi hissəsinin, 2011-ci ilin aprel ayından etibarən isə Bakının Biləcəri qəsəbəsində yerləşən “N” saylı hərbi hissənin xüsusi təyinatlı dəstələrində müxtəlif vəzifələrdə xidmət edib. Sonuncu vəzifəsi isə Daxili Qoşunların Biləcəridəki “N” saylı hərbi hissəsinin “Şahin” xüsusi təyinatlı dəstəsinin snayper qrupunda atıcı-snayper olub.

Xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı, hərbi intizamı və nümunəvi keyfiyyətləri ilə fərqlənən hərbi qulluqçumuz “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)” və 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalları ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

2019-cu ilin noyabr ayının 25-dən dekabr ayının 20-dək qardaş Türkiyədə Jandarm Komando Məktəbi və Təlim Mərkəzi Komandanlığında keçirilən “Snayper kursu”nda iştirak edib.

“N” saylı hərbi hissənin “Şahin” xüsusi təyinatlı dəstəsinin komandiri, Vətən müharibəsi iştirakçısı mayor Elçin Babayev vaxtilə birgə xidmət etdiyi Raufun nümunəvi hərbi xidmətindən və döyüş meydanında göstərdiyi şücaətindən qürur hissi ilə danışdı: “Çavuş Rauf Süleymanov döyüş və fiziki hazırlığı hər zaman yüksək səviyyədə olan əsl xüsusi təyinatlı idi. Nizam-intizamı, təlim-tərbiyəsi və xoş rəftarı ilə kollektivdə böyük hörmət qazanmışdı. Qorxmazlıq və mərdlik Raufun əsas xarakterik xüsusiyyətləri idi. 2014-cü ildə əsl xüsusi təyinatlıya xas olan əzmkarlığı ilə qazandığı zoğalı bereti də hər zaman böyük qürur hissi ilə daşıyıb. Ona təhkim olunmuş silahın bütün taktiki-texniki xüsusiyyətlərini mükəmməl bilirdi. Daxili Qoşunların snayperləri arasında keçirilən yarışlarda hər zaman yüksək nəticələr göstərib. Bir sözlə, sərrast atıcı, əsl snayper idi. Döyüş meydanında da Rauf öz sərrast atəşi ilə düşmənin onlarla canlı qüvvəsini məhv etməklə, hərbi andına sadiq cəsur snayper olduğunu bir daha təsdiq etdi”.

Vətən müharibəsi iştirakçıları - “N” saylı hərbi hissədə xüsusi təyinatlı dəstənin snayper qrupunun qrup komandirinin müavini-snayper gizir Şamil Əhmədov və snayper qrupunda atıcı-snayper baş çavuş Aqil Əhmədov da vaxtilə bir qrupun tərkibində xidmət etdikləri çavuş R.Süleymanovun Kəlbəcərdən Cəbrayıladək keçdiyi qısa, lakin qəhrəmanlıqlarla zəngin şərəfli döyüş yolunun gənc nəslə nümunə olduğunu bildirdilər.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilmiş 17 oktyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə isə hərbi qulluqçumuzun 2020-ci il oktyabrın 5-də Füzulidə hərbi əməliyyat nəticəsində odlu silah yarasından həlak olduğu yazılıb.

Çavuş R.Süleymanov 2020-ci il oktyabrın 6-da Neftçala rayonunun Abasallı kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş Süleymanov Rauf Allahverdi oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.

*mayor Anar Əhmədov*

## Daxili işlər orqanları əməkdaşlarının nəzərinə!

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 1, 2, 3 və 4 saylı uşaq bağçalarına daxili işlər orqanlarında xidmət edən əməkdaşların uşaqlarının qəbulu həyata keçirilir.

Ətraflı məlumat üçün DİN-in Maddi-Texniki Təminat Baş İdarəsinə müraciət edə bilərsiniz.

**Əlaqə nömrələri: (012) 562 38 40 və 408 81 25**



# Onlar mübarizəni davam etdirirlər

### Müharibə iştirakçılarının medallarını idarə rəisi təqdim edib



Daxili işlər orqanlarında xidmətə qəbul olunan yüzlərlə Vətən müharibəsi iştirakçısının fədakarlıqları dövlət başçısı tərəfindən yüksək dəyərləndirilir. Nəsimi RPİ Post-Patrul Xidməti Bölüyündə ictimai asayişin və təhlükəsizliyin keşiyini çəkən həmkarlarımız da döyüş əməliyyatlarında aktiv iştiraklarına görə medallarla təltif olunublar.

Medalların təqdim edilməsi mərasimində İdarə rəisi, polis polkovniki Mirnemət Mirbabayev Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızın azad olunmasında göstərdiyi misilsiz qəhrəmanlıqlar barədə danışıb. Otuz ilə yaxın sürən ağrılı Vətən həsrətinə şəhidlərimizin, qazilərimizin sayəsində son qoyulduğunu vurğulayan idarə rəisi, müharibə iştirakçılarının da onlar kimi böyük Zəfərin əldə edilməsində haqlarının olduğunu qeyd edib.

Bildirilib ki, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun vətəndaş müraciətlərinə həssas münasibət göstərilməsi barədə tələbinə uyğun olaraq, Nəsimi RPİ-yə hər hansı səbəbdən müraciət edən şəhid ailələri və qazilər dərhal qəbul edilir, problemlərinin həll edilməsinə xüsusi diqqət göstərilir. İstər birinci, istərsə də ikinci Qarabağ müharibəsinin şəhidlərinin ailə üzvlərinə mütəmadi baş çəkən, qayğıları ilə maraqlanan idarə əməkdaşlarının bunu özlərinə mənəvi borc bildikləri vurğulanıb.

Polis polkovniki M.Mirbabayev Vətən müharibəsi itirakçılarının polis orqanlarında xidmət etməsinin Azərbaycan Polisinin vətənpərvərlik dəyərlərinə böyük önəm verməsinin bariz nümunəsi olduğunu, səngərdə düşmənlə döyüşərkən sərgilədikləri cəsarəti, şücaəti cinayətkarlığa qarşı mübarizədə də təkrarlayacaqlarına əminliyini bildirib.

Daha sonra Nəsimi RPİ Post-Patrul Xidməti Bölüyünün polis nəfərləri, polis kiçik serjantları Nicat İslamov və Ruslan Abbasova “Vətən müharibəsi iştirakçısı” medalları təqdim edilib.

Qeyd edək ki, R.Abbasov müharibədə cəbhənin Kəlbəcər, Suqovuşan, Ağdərə istiqamətlərində gedən döyüşlərdə top komandiri olub. N.İslamov isə Füzulinin, Xocavəndin və Cəbrayılın azad olunmasında iştirak edib.

DİN rəhbərliyinə onlayn müraciət əsasında daxili işlər orqanlarında xidmətə qəbul edildikləri deyən gənc həmkarlarımız bunu müharibə iştirakçılarına böyük diqqət və qayğı kimi dəyərləndirərək, etimadı doğruldacaqlarını deyiblər.

*R.Mehtiyev*

# Qaliblər Vətənə döndülər

Özündə sevgi, dostluq və bərabərliyi birləşdirən V İslam Həmrəyliyi Oyunları avqustun 18-də başa çatsa da idmançılarımızın qələbə uğrunda mübarizələri hələ uzun illər yaddaşlarda qalacaq.

Bu oyunlarda ölkəmiz ümumilikdə 99 medal qazanaraq (29 qızıl, 36 gümüş və 34 bürünc medal) Türkiyə, Özbəkistan və İrandan sonra 4-cü olub.

Qazanılan qələbə sevincindən DİN İdman Cəmiyyətinin də payına düşüb. Belə ki, İslamiadaya qatılan idmançılarımız - ağır atletika üzrə 102 kiloqram çəki dərəcəsində Dadaş Dadaşbəyli 2-ci, taekvando üzrə 67 kiloqram çəki dərəcəsində yarışan Fəridə Əzizova 1-ci, kikboksçularımız - Anar Məmmədov 57 kiloqram çəki dərəcəsində 1-ci, Fərid Ağamoğlanov 63 kiloqram çəki dərəcəsində 1-ci, Ramal Aslanov 75 kiloqram çəki dərəcəsində 2-ci, Saqi Salehli 75 kiloqram çəki dərəcəsində 2-ci, Amil Məmmədov isə 51 kiloqram çəki dərəcəsində 3-cü olub. Stend atıcılığı üzrə gücünü sınayan Nurlana Cəfərova şəxsi birincilikdə 2-ci yerə çıxaraq gümüş medal qazansa da, komanda yarışında Fuad Qurbanovla birgə ilk pillədə qərarlaşıblar. Qaliblərimiz 4 qızıl, 4 gümüş, 1 bürünc medalla Vətənə qayıdıblar.

# Məqsəd ekologiyanı qorumaqdır



Avqustun 1-dən 31-dək Baş Dövlət Yol Polisi Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə ölkə ərazisində “Təmiz hava” aylığına start verib. “Təmiz hava” aylığı aksiyasının keçirilməsində məqsəd atmosfer havasının çirklənməsinə nəzarət etmək və ətraf mühitin avtomobillərin ixrac qazlarının tərkibində olan zərərli maddələrlə çirkləndirilməsinin qarşısını almaqdır. Dövlət qurumlarının bu məqsədlə birgəlik nümayiş etdirmələri ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanıb. Nəqliyyat üzrə ekspert Elməddin Muradlı: "Avtomobilin varsa, sükan arxasında əyləşirsənsə, təkcə özünü deyil, hər kəsi, hər şeyi düşünməlisən. Bu məsələdə məsuliyyətsizlik etmək olmaz. "Təmiz hava" aylığı keçirilməsə bəzi sürücülərin yadına idarə etdikləri avtomobilin mühərriklərini, yanacaq sistemlərini mütəmadi olaraq yoxlatdırmaq kimi vacib profilaktiki tədbirlər düşməz. Çünki avtomobil vaxtında yoxlanışdan keçərsə, bununla həm də baş verə biləcək bir çox xoşagəlməz halların qarşısı alınar, həm də nəqliyyat vasitəsinin istismar ömrü uzanmış olar. Dövlət Yol Polisi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə keçirilən aksiyanın bu dəfəki ünvanı Sumqayıt şəhəri, Nəsimi və Suraxanı rayonları olub.

Sürücülərə həm sağlamlıqlarının, həm də ətraf mühitin qorunması üçün avtomobillərini saz vəziyyətdə saxlamaları ilə bağlı maarifləndirici tövsiyələr verilib, zərərli qazların miqdarı normadan artıq olan nəqliyyat vasitələrinin sürücülərinə inzibati qaydada protokol tərtib olunub, avtomobilləri saz vəziyyətdə olan sürücülərə isə təşəkkür edilib.

Bildirilib ki, avtomobillərin saz vəziyyətdə saxlanması həm özləri, həm ailə üzvləri, həm də cəmiyyət üçün xeyirlidir.

*Ruhiyyə Əliyeva, polis kapitanı*

# Bir gündə şəhid oldular...





Bu günlərdə Birinci Qarabağ müharibəsində eyni gündə - avqustun 18-də şəhid olmuş dörd polis əməkdaşı - İsayev Kamal İnqilab oğlu, Bayramov İlqar Telman oğlu, Paşayev Ziyəddin Cəlal oğlu və Süleymanov Habil Yusif oğlunun, həmçinin Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş igid oğulların xatirəsi Sumqayıt şəhərində yerləşən Q.İlyasov adına Qubadlı şəhər 1 saylı tam orta məktəbdə təşkil olunan mərasimdə Dövlət Himni səsləndirildikdən sonra bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə rayon icra hakimiyyətinin məsul işçiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, şəhidlərimizin ailə üzvləri, yaxınları, Qubadlı Rayon Polis Şöbəsinin əməkdaşları, keçmiş polis işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Qubadlı rayon icra hakimiyyəti başçısının müavini Allahverdi Haqverdiyev qeyd edib ki, Birinci Qarabağ müharibəsində Qubadlı rayonundan 238 nəfər şəhid olub. Onlardan 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Şəhidlərimizdən 12 nəfəri polis əməkdaşı olub.

Vurğulanıb ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuzun rəşadəti, qəhrəmanlığı sayəsində torpaqlarımız, o cümlədən 30 ilə yaxın həsrətində olduğumuz Qubadlı rayonu 2020-ci il oktyabrın 25-də işğaldan azad olundu. 44 günlük Vətən müharibəsində Qubadlı rayonundan 11 şəhid və 40-dan çox qazi, həmçinin yüzlərlə qəhrəman öz adlarını tarixə yazdılar. Şəhidlərimizin qisası alındı, qanları yerdə qalmadı.

Digər çıxış edənlər- təqaüddə olan polis əməkdaşları Azim Abbasov, Cavid Bədəlov və Qubadlı rayon Polis Şöbəsinin rəis müavini, polkovnik-leytenant İlham Rəsulov şəhidlərimizlə bağlı xatirələrini bölüşüblər.

Şəhid Kamal İsayevin həyat yoldaşı Fəridə Yaqubova, şəhid Habil Süleymanovun qardaşı Salman Süleymanov, şəhid Ziyəddin Paşayevin həyat yoldaşı Hicran Paşayeva və şəhid İlqar Bayramovun xalası oğlu Şəmsi Bayramov göstərdikləri diqqət və qayğıya görə Ali Baş Komandan, Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildiriblər.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Polis ədaləti qoruyur – İdmanda da...





Avqustun 15-dən 21-dək Bolqarıstanın paytaxtı Sofiya şəhərində yunan-Roma, sərbəst, qadın güləşi üzrə U-20 Dünya Çempionatı keçirilib. Dünyanın 60-dan çox ölkəsinin komandasının qatıldığı bu yarışda Azərbaycan güləşçiləri yeni uğurlara imza atıblar. Yunan-Roma güləşçilərimiz 3 qızıl, 2 bürünc medalla çempionatı 2-ci pillədə başa vurublar. Sərbəst güləşçilərimiz 2 qızıl, 1 gümüş medalla 4-cü yerdə qərarlaşıblar. Qadın güləşçilərimizin isə aktivinə 1 bürünc medal yazılıb. Bu yarışda komandamızla yanaşı Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşı, polis leytenantı Tural Əliyev də hakim kimi fərqlənib. Belə ki, həmin yarışda hər ölkədən 1 hakim dəvət olunsa da final görüşləri yalnız ən ədalətli, obyektiv hakimlərə etibar olunub. Çempionatın davam etdiyi 7 gün ərzində beynəlxalq dərəcəli hakim Tural Əliyev bütün güləş növlərindəki qarşılaşmaların idarə olunmasına cəlb edilib. Hər günün sonunda isə çəki dərəcələri üzrə cəmi 5 final qarşılaşması olub. Qürurverici haldır ki, təmsilçimizə hər gün final, yarımfinal və 3-cü yer uğrunda qarşılaşmalarda ədaləti qorumaq etibar edilib.

Redaksiyamızın qonağı olan T.Əliyev yarış təəssüratlarını bizimlə bölüşdü: "Final görüşlərində yunan-Roma güləşində çəkisi 82 kiloqramadək olan İran və Gürcüstan təmsilçiləri, 130 kiloqramadək olan Ukrayna-İran pəhləvanları, qadın güləşində 52 kiloqram çəkidə Yaponiya-Ukrayna və 70 kiloqramadək olan Amerika və Qazaxıstan idmançıları demək olar ki, həm fiziki, həm də texniki baxımdan yüksək hazırlıqlı, bərabər səviyyəli idmançılar idilər. Çox sürətlə biri-birini əvəz edən fəndlər tətbiq olunurdu. Ani bir hərəkətin diqqətdən yayınmasına yol verə bilməzdim. Güclü azarkeş təzyiqi isə işi lap çətinləşdirirdi. Amma, buna baxmayaraq, hakimliyimə görə yarış təşkilatçılarından yalnız təşəkkür aldım.

Bir fikrimi də sizinlə bölüşmək istərdim. Müstəqilliyimizin ilk illərində beynəlxalq arenalarda idmançılarımıza "asan" rəqib kimi baxırdılar. Son illərdə isə müşahidə edirəm ki, təmilçilərimizlə bir qrupa düşən, döşəyə çıxan idmançılarda bir gərginlik, həyəcan var. Xarici komanda rəhbərləri də Azərbaycan idmançılarına ən təhlükəli rəqibləri kimi baxdıqlarını etiraf edirlər. Xüsusən, Vətən müharibəsində qazandığımız Zəfər idmançılarda da yüksək əhval-ruhiyyə yaradıb. Hər dəfə bayrağımız ucalanda, himnimiz səslənəndə ürəyimiz qürurdan dağa dönür. Ölkə idmanının şöhrəti naminə bundan sonra da əlimizdən gələni əsirgəməyəcəyik".

*R.Əliyeva*

# DÜNƏN SƏNGƏRDƏ, BU GÜN ASAYİŞİN KEŞİYİNDƏ

## Vətən müharibəsi iştirakçısı olmuş gənc həmkarlarımıza medallar təqdim olunub



Daxili işlər orqanlarında xidmətə qəbul olunan yüzlərlə Vətən müharibəsi iştirakçısı bu gün sıralarımızda ictimai-asayişin və təhlükəsizliyin keşiyini çəkir. Səngərdə başa vurduqları Vətən növbəsini, əmin-amanlıq naminə hazırda polis orqanlarında davam etdirən gənc həmkarlarımız cinayətkarlıqla mübarizənin də ön cəbhəsindədirlər.

DİN-in Əlahiddə Çevik Polis Alayında xidmət edən belə 13 Vətən müharibəsi iştirakçısı Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən "Vətən müharibəsi iştirakçısı" medalı ilə təltif ediliblər. Alayın əməkdaşları 2020-ci il sentyabr ayının 27-dən noyabr ayının 10-dək olan dövrdə cəbhənin Xocavənd, Cəbrayıl, Suqovşan, Ağdam, Ağdərə istiqamətlərində gedən döyüş əməliyyatlarında iştirak ediblər. Döyüş əməliyyatlarının uğurla nəticələnməsinə töhfə vermiş bu həmkarlarımıza medallar təqdim olunub.

Müharibəyə könüllü yollanmış polis kiçik serjantı Bahadur Abdullayev qəzetimizin əməkdaşına deyib ki, polis adını qazanmaqdan qürur hissi keçirir. O, Vətən müharibəsi iştirakçılarının daxili işlər orqanlarında xidmətə qəbul olunmasına xüsusi diqqət ayıran DİN rəhbərliyinə minnətdarlığını da bildirib.

*"Polis"*

# ƏMƏLİYYAT UĞURLA NƏTİCƏLƏNDİ

**Xəzər RPİ 3-cü PŞ** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində müxtəlif vaxtlarda rayon ərazisində yerləşən ayrı-ayrı şəxslərə məxsus 8 evdən 1207 manat, 900 ABŞ dolları, 6770 manat dəyərində qızıl-zinət və məişət əşyaları oğurlamaqda şübhəli bilinən Ağstafa rayon sakini, əvvəllər məhkum olunmuş M.Alıyev saxlanılıb.

◆◆◆

**Suraxanı RPİ 30-cu Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Binə qəsəbəsi ərazisində iki evdən 1905 manat dəyərində sərinkeş, qaynaq aparatı, 3000 manat dəyərində təmir alətləri və elektrik naqili oğurlamaqda şübhəli bilinən Ç.Kərimov saxlanılıb.

◆◆◆

**Quba RPŞ** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri ilə narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən S.Yusufovun yaşadığı ünvana baxış zamanı oradan 11 kiloqramdan artıq marixuana aşkarlanaraq götürülüb.

# Xəbərin ünvanı biz olanda...

## Polis-media münasibətləri problemlərin də həllində mühüm rol oynayır

Vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması, xidməti fəaliyyətimizdə operativlik və obyektivlik prinsipinin üstün tutulması bizə olan etimadı artırıb.

Cəmiyyətdə baş verənlərə polisin vətəndaş münasibəti öz yerində, qanunun diktə etdiyi dildə proseslərə müdaxilə etmək isə diqqətin fəaliyyətimiz üzərində cəmlənməsini qaçılmaz edir. Odur ki, cəmiyyət dəstəkli polisin media ilə münasibətləri də diqqət çəkəndir. Cəmiyyətin güzgüsü kimi dəyərləndirilən medianın maariflənmədə, ictimai rəyin formalaşmasında rolunu nəzərə alıb 4-cü hakimiyyətlə münasibətlərimizi hər zaman isti saxlamağa çalışırıq. Polis-media münasibətləri bir çox problemlərin həllini tapmasında mühüm rol oynayır. Həllini gözləyən və ya həllini tapmış problemlərlə bağlı KİV nümayəndələrinin DİN-ə ünvanladıqları müraciətlər, eləcə də təşəkkür məktubları fəaliyyətimizə sözün əsl mənasında nəzarətdən xəbər verir.

"Bu gün Azərbaycan Polisi peşəkar xidməti biz jurnalistlərdə daha çox rəğbət doğurur. Çünki əsl jurnalist düzü-düz, əyrini-əyri dəyərləndirməlidir. Peşəmizlə yanaşı bizim vətəndaş mövqeyimiz də bunları deməyə əsas verir. Üzləşdiyim problemin həlli istiqamətində müraciətimə dərhal reaksiya verilməsi və qısa müddətdə həllini tapması məni çox sevindirdi". Bu fikirlər **jurnalist Zülfiyyə Qurbanovanın** təşəkkür məktubundandır.

**Xəzər Tv-nin müxbiri İslam Əşrəfov** yazır ki, polisin xidməti fəaliyyəti bir jurnalist olaraq onun da diqqətindən yayınmayıb: "Müşahidələrimə əsaslanıb deyirəm ki, polisin nümunəvi xidməti vətəndaşlarda inamı, güvəni günü-gündən artırmaqdadır. İctimai sabitliyin təmin olunmasında, cinayətkarlıqla mübarizədə qətiyyət nümayiş etdirən daxili işlər orqanları əməkdaşları işğaldan azad olunmuş rayonlarımızda da öz işlərini yüksək səviyyədə quraraq vətəndaşların xidmətindədirlər. Belə ki, ailə üzvlərimin Kəlbəcər rayonunda olan təsərrüfatına getmələrində yaranan problemlə bağlı müraciətimə qısa zaman ərzində baxıldı və müsbət həllini tapdı...".

**Doğruxəbər.az saytının baş redaktoru Kamal Əsgərov** isə öz təşəkkürünü belə ifadə edir: "Bu gün vətəndaş müraciətlərinə həssaslıqla yanaşılması dövlətimizin prioritetlərindəndir. Bu istiqamətdə Daxili İşlər Orqanları əməkdaşlarının xidməti fəaliyyəti təqdirəlayiqdir. Yeri gəlmişkən, bu günlərdə müəyyən sənədləşmə ilə bağlı Baş Dövlət Yol Polisi İdarəsinə müraciət edərkən bir daha əmin oldum ki, Azərbaycan Polisi vətəndaşın yanında və xidmətindədir".

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# POLİS ÜZƏRİNƏ DÜŞƏNİ EDİR

## *Bəs, valideynlər və cəmiyyət necə?*








Uşaq sığınacaqlarında, internat evlərində olanlar ata-ana qayğısından məhrum olan uşaqların kədərli baxışları altında əzilməyin nə demək olduğunu yaxşı bilirlər. Həmin an o uşaqları köksünə sıxıb saçını oxşamaq və onlara bu taleyi yaşadan hər kimdirsə, hər nədirsə ona lənət oxumaqdan başqa adamın əlindən bir şey gəlmir...

Doğrudur, sığınacaqlar övladlarına qayğı göstərməkdən, sosial təminatlarından min bir bəhanə ilə imtina edib küçəyə atan valideynlərdən fərqli olaraq, onlara isti qucaq açır. Adətən elə onlardan ayrılanda "isti yataqları var, qarınları doyur, böyüyürlər..." sözləri ilə özünə təsəlli verib, ovunmağa çalışırsan.

Yetkinlik yaşına çatmayanlarla iş aparan həmkarlarımız xidmətləri gərəyi bu hissləri, duyğuları hər birimizdən daha çox - hətta hər gün yaşadıqlarını təsəvvür etmək o qədər də çətin deyil. Sabunçu RPİ İctimai Təhlükəsizlik Şöbəsinin Yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin rəisi, polis kapitanı Ata Atayev də qeyd edir ki, müəyyən səbəblərdən valideyn himayəsindən məhrum olmuş, atılmış uşaqları sığınacağa yerləşdirməklə işlərini bitmiş hesab etmirlər. Bir vətəndaş, böyük qardaş, əmi kimi onlara mütəmadi baş çəkib qayğılarıyla maraqlanır, ana-ata nəvazişini əvəz etməyə çalışırlar.

Uşaqların qorunmasından söz düşmüşkən bölmə rəisi qeyd edir ki, Sabunçu rayonunda cari ilin 6 ayı ərzində valideyn himayəsindən məhrum olunmuş 9 azyaşlını sosial sığınacağa yerləşdiriblər. Təhsildən yayınan 53 yeniyetmənin dərsə davamiyyəti bərpa olunub, 22 nəfər isə avara və dilənçiliklə məşğul olduğuna görə valideynləri müəyyənləşdirilərək onlarla izahedici iş aparılıb. Yetkinlik yaşına çatmayana tütün məmulatı satılması ilə bağlı 23 fakt əsasında sahibkarlıq obyektləri cərimələnib: "Bundan başqa, yeniyetmələr arasında antinarkotik təbliğatını gücləndirmək məqsədilə 6 ay ərzində idarə rəisi, polis polkovniki Cavid Muradovun, rəisi müavinlərinin iştirakı ilə rayon ərazisindəki 22 orta məktəbdə maarifləndirici görüşlər keçirmişik. Bu tədbirlərdə müxtəlif dövlət qurumları, ictimaiyyət nümayəndələri ilə yanaşı, şəhid ailələrinin yaxınları, qazilər iştirak ediblər. Hətta həmin məktəbləri bitirmiş şəhidlərin valideynlərini də tədbirlərə dəvət edirik. Bu uşaqların vətənpərvərlik tərbiyəsinə şübhəsiz ki, təsir edir".

Yeri gəlmişkən, Sabunçu RPİ bu göstəricilərlə paytaxt ərazisində öndə gedən idarələrdən biridir.

Polsin təkcə bir rayon üzrə statistikasını qeyd etdiymiz genişmiqyaslı maarifləndirici tədbirlərinə baxmayaraq, hər nə qədər uşaq və cinayətkar kəlmələri bir-birlərinə mahiyyətcə zidd olsalar da, bəzən aradakı uçrum yoxa çıxır, uşaqlar cinayət törədir, cinayətkara çevrilirlər.

İdarənin baş inspektoru, polis polkovnik-leytenantı Asif Məlikov 10 illik yetkinlik yaşına çatmayanlarla profilaktik iş təcrübəsinə əsaslanaraq deyir ki, bu məsələdə də məsuliyyət valideynlərin və cəmiyyətin üzərinə düşür: "Valideyn nəzarəti zəifdirsə, uşağın təhsili, gündəlik həyat tərzi, dost-tanışının kimlər olduğu ilə maraqlanmırsa, kriminal mühitə yönəlməsi riski dəfələrlə artır".

Polisin üzərinə düşən vəzifələri tam icra etdiyini deyən baş inspektorun sözlərinə görə, avaraçılıq və dilənçilik edən, müxtəlif hüquqpozmalar törətdiyi üçün polis orqanına gətirilmiş uşaqları idmana cəlb edirlər və onların bəziləri hazırda respublika səviyyəli yarışlarda uğurla çıxış edir: "O gün banka getmişdim, bir nəfər mənə yaxınlaşıb soruşdu ki, Asif əmi, məni tanıdınız? Dedim, tanımadım. Qayıtdı ki, mən orta məktəbdən oxuyanda dərsdən qaçmışdım, siz məni saxladınız, izahatımı aldınız, apardınız sinif otağına. Ondan sonra heç dərsdən qaçmadım. İndi bu bankda baş məsləhətçiyəm..."

*R.Mehtiyev*

# Odlu silah və narkotik vasitələr götürülüb

## *Polisin qətiyyəti mübarizə tədbirlərinin kəsərini artırır*





Ağcabədi Rayon Polis Şöbəsinin əməkdaşlarının son günlərdə keçirdiyi əməliyyat tədbirləri nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində, oğurluq əməlləri törətməkdə və qanunsuz olaraq odlu silah saxlamaqda şübhəli bilinən ümumilikdə 30 nəfər saxlanılıb.

Daxil olmuş məlumat əsasında Ağcabədi RPŞ-nin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri ilə narkotik vasitənin qanunsuz dövriyyəsində şübhəli bilinən rayon sakini Ceyhun Hüseynov saxlanılıb. Onun üzərinə və həyətində saxladığı avtomobilinə baxış keçirilən zaman 2 kiloqram 200 qrama yaxın güclü təsiredici xassəyə malik narkotik vasitə olan heroin aşkar edilərək götürülüb.

Şöbə əməkdaşlarının keçirdiyi digər tədbirlərlə oğurluq əməlləri törətməkdə şübhəli bilinən rayon sakinləri Rahim Cəfərov və Elçin Hüseynov saxlanılıblar. R.Cəfərovun rayon ərazisindəki aptekdən, E.Hüseynovun isə evlərin birindən oğurluq etdikləri müəyyən edilib. Onların zərərçəkmiş şəxslərə 5300 manat miqdarında ziyan vurduqları məlum olub. E.Hüseynovun üzərinə baxış keçirilən zaman isə narkotik vasitə olan heroin də aşkar edilərək götürülüb.

Bundan başqa, Ağcabədi RPŞ-nin əməkdaşlarının son günlərdə keçirdikləri tədbirlər nəticəsində narkotik vasitələrin qanunsuz dövriyyəsində şübhəli bilinən 28 nəfər barəsində cinayət işi başlanılıb, onlardan 22 kiloqramdan artıq müxtəlif adda narkotik vasitələr aşkarlanıb. Bir nəfərdən isə qanunsuz olaraq əldə edərək saxladığı avtomat silahı götürülüb.

Saxlanılan şəxslər barəsində məhkəmənin qərarı ilə qanunamüvafiq qaydada tədbirlər görülüb.

*Aslan Qiyaslı,*
*polis baş leytenantı*

# Sıravi və kiçik rəis heyəti vəzifələrinə (operator) xidmətə qəbulla bağlı müsabiqə

Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi operator vəzifələri üzrə müvafiq qurumlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir.

***Müsabiqədə yaşı 25-dən 30-dək, boyu 160 santimetrdən yuxarı olan, Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrini bitirmiş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən, Bakı şəhərində daimi qeydiyyatda olan və yaşayan Azərbaycan Respublikasının qadın cinsli vətəndaşları iştirak edə bilərlər.***

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, fiziki hazırlıqları və bilik səviyyəsi müəyyən olunmuş normativlər üzrə yoxlanılaraq, kompüter və rabitə avadanlıqları ilə işləmək, analitik düşünmə və araşdırma, düzgün qərar vermək və problem həll etmək qabiliyyətlərinə malik, komandada işləmək bacarıqları və qrammatik bilikləri yüksək səviyyədə olan, məsuliyyətli, diqqətli və inkişafa meyilli, ən azı xarici dillərdən birini sərbəst bilən və ailəli şəxslərə üstünlük veriləcəkdir.

Müsabiqə qaliblərinə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək müvafiq xüsusi rütbə verilməklə 500-800 manat aylıq təminat xərcliyi ödəniləcək, habelə qanunvericiliklə müəyyən olunmuş qaydada onların daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ olacaqdır.

İştirak etmək istəyən şəxslər 2022-ci ilin avqust ayının 25-dən sentyabr ayının 25-dək Daxili İşlər Nazirliyinin internet saytında **/www.mia.gov.az/** yerləşdirilmiş elektron ərizə formasını və anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsilə DİN-in Baş Kadrlar İdarəsinin **bki@mia.gov.az** elektron ünvanına göndərməlidirlər.

**Əlavə məlumat üçün əlaqə telefonları:**
**(012) 590-80-63 / 80-63 daxili**
**(012) 590-80-66 /80-66 daxili**

# Telefon mağazasından həbsxanaya...

Nəsimi Rayon Polis İdarəsinin 22-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində rayon ərazisindəki mağazaların birindən 93 855 manat dəyərində 35 ədəd mobil telefon oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini A.İbrahimov saxlanılıb.

# Polis onun "film"inə inanmadı



İmişlidə işlədiyi şirkətdən pul mənimsəyən şəxs saxlanılıb.

Avqustun 18-də Sabirabad rayon sakini Nicat Ağayev İmişli Rayon Polis Şöbəsinə müraciət edərək rayon ərazisində saxladığı nəqliyyat vasitəsinin yan şüşələrinin naməlum şəxs və ya şəxslər tərəfindən qırılması, avtomobildə olan pul, mobil telefon və sənədlərin oğurlanması barədə məlumat verib.

Daxil olan müraciətlə əlaqədar şöbə əməkdaşları tərəfindən peşəkarlıqla keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən oğurluq hadisəsinin vətəndaşın özü tərəfindən törədilməsi müəyyən edilib.

Araşdırmalar zamanı məlum olub ki, şirkətlərin birində satış təmsilçisi kimi çalışan N.Ağayev satışdan əldə olunan 4137 manat pulu mənimsəyib. Daha sonra isə izi itirmək üçün avtomobilin yan şüşəsini daşla qıraraq, nəqliyyat vasitəsindən şirkətə məxsus 4370 manat, eləcə də özünün 120 manat pulunun, mobil telefonunun və avtomobilin müvafiq sənədlərinin oğurlanması səhnəsi yaradıb və bu barədə polisə məlumat verib.

Şöbə əməkdaşları tərəfindən onun üzərinə keçirilən baxış zamanı 1454 manat pul, eləcə də oğurlanması barədə məlumat verdiyi mobil telefon və digər sənədlər aşkarlanaraq maddi sübut kimi götürülüb.

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır. Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik